# DƏNİZ

Qəzet 1931-ci ilin aprelindən çıxır

17 aprel 2015-ci il
№ 13-14 (8971)
Qiyməti 38 qəpik

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin qəzeti


Bu ilin birinci rübündə də bu müsbət meyillər davam edib. Mən keçən ilin sonunda əmin olduğumu bildirmişdim ki, 2015-ci il də ölkə iqtisadiyyatı üçün uğurlu il olacaq. Birinci rübün yekunları bu sözləri təsdiqləyir. Ümumi daxili məhsul 5 faizdən çox artmışdır. Bu, çox gözəl göstəricidir, həm region, həm dünya üçün. Bu gün dünyada 5,3 faiz, yaxud da ki, 6 faizə yaxın inkişaf edən iqtisadiyyatlar çox azdır.

Azərbaycanda dinamik inkişaf təmin edilir və sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da son illər ərzində aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində mümkün olmuşdur. Çünki uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımız dayanıqlı surətdə inkişaf etsin, bir sektordan - neft-qaz sektorundan asılı olmasın. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi bizim ümumi iqtisadi inkişafımıza təsir etməmişdir. Budur, Azərbaycanın iqtisadi modelinin unikallığı və bu göstəricilər bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını bir daha göstərir.

Qeyri-neft sektoru prioritet olaraq qalacaq. Çünki bundan sonra Azərbaycan iqtisadiyyatı çoxşaxəli surətdə inkişaf edəcəkdir. Şadam, artıq bir müddətdir ki, qeyri-neft sektorumuz ümumi daxili məhsulumuzun əksər hissəsini təşkil edir. Əminəm ki, bu faiz nisbəti getdikcə daha da artacaq və beləliklə, bundan sonra Azərbaycan iqtisadiyyatı neft-qaz amilindən daha da az asılı olacaq.

Bir daha demək istəyirəm ki, neftin qiymətinin iki dəfədən çox düşməsi bizim ümumi dinamik inkişafımıza təsir etməmişdir, qeyri-neft sektoru əsas iqtisadi yükü öz üzərinə götürmüşdür. Bundan sonra məhz qeyri-neft sektorumuzun inkişafı ölkəmizin uğurlu iqtisadi inkişafını təmin edəcəkdir.

Sevindirici haldır ki, sənaye istehsalı birinci rübdə artmışdır. Bildiyiniz kimi, son illər ərzində neftin hasilatının bir qədər düşməsi nəticəsində biz sənaye istehsalında artımı müşahidə etmirdik. Bu ilin birinci rübündə sənaye istehsalı təxminən 4 faiz artmışdır. Bu da görülən işlərin nəticəsidir. Keçən il Azərbaycanda “Sənaye ili” elan edilmişdir, bu sahəyə xüsusi diqqət göstərilmişdir. Ondan əvvəlki illərdə müasir sənaye komplekslərinin, texnoparkların yaradılması, kiçik və orta sahibkarlığın inkişafı sayəsində sənaye potensialımız böyük dərəcədə güclənmişdir. Bunun nəticəsidir ki, Azərbaycanda sənaye istehsalı artır.



İnflyasiya Azərbaycanda çox aşağı səviyyədədir. Keçən il bir faizdən bir qədər çox idi. Bu il isə 2,8 faizdir. O da çox əlamətdar hadisədir ki, manatın məzənnəsinə bu ilin fevralında dəyişikliklər edilmişdir, buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Bu, onu göstərir ki, Azərbaycanda istehlak bazarına nəzarət tam təmin edilir, dövlət və hökumət bu məsələləri daim diqqət mərkəzində saxlayır.

İnflyasiyanın aşağı səviyyədə olması, əlbəttə ki, insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir. Eyni zamanda, onu da bilməliyik ki, inflyasiya çox aşağı səviyyədə olanda iqtisadi inkişafı bir qədər əngəlləyir. Ona görə burada əlbəttə ki, düzgün balans seçilməlidir və Azərbaycanda makroiqtisadi vəziyyət daim diqqət mərkəzindədir. İnflyasiya həm sosial funksiyalarını özündə ehtiva etməlidir, eyni zamanda, ölkəmizin inkişafını, xüsusilə ixrac potensialımızın genişləndirilməsini təmin etməlidir. Hər il olduğu kimi, bu il də əhalinin pul gəlirləri inflyasiyanı üstələyir. Əhalinin pul gəlirləri 5,3 faizdir, təxminən iki dəfə inflyasiyadan artıqdır.

Bax, budur bizim əsas iqtisadi göstəricilərimiz. Hesab edirəm ki, 2015-ci ildə istənilən ölkə üçün, xüsusilə neft-qaz sektoru inkişaf etmiş ölkələr üçün bu, həddindən artıq müsbət göstəricidir, deyə bilərəm ki, bizim böyük uğurumuzdur. Bu uğurları biz əldə etmişik, Azərbaycan xalqı əldə edib. Əgər biz vaxtilə ölkəmizin qeyri-neft sektorunun inkişafına bu qədər böyük diqqət göstərməsəydik, bəlkə də bu gün bu nəticələr o qədər də ürəkaçan olmazdı. Əksinə bizi staqnasiya, resessiya gözləyə bilərdi, necə ki, biz indi dünyada, bölgədə bəzi yerlərdə bunu müşahidə edirik.

Azərbaycan iqtisadiyyatının xüsusiyyətləri ondan ibarətdir ki, bu, möhkəm təməl üzərində qurulub, özünü təmin edən iqtisadiyyatdır, xarici maliyyə resurslarından asılı deyil. Əksinə, biz indi özümüz donor kimi, həm başqa ölkələrə, eyni zamanda, beynəlxalq maliyyə qurumlarına maliyyə resurslarımızı təqdim edirik. Bu da bizə əlavə mənfəət gətirir. Azərbaycan iqtisadi müstəqilliyini tam şəkildə əldə etdikdə təbii ki, siyasi müstəqillik daha da güclənir.

*(Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən)*

# 2014-CÜ İLİN NƏTİCƏLƏRİ ÜRƏKAÇANDIR





**Aprelin 10-da akt zalında “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin 2014-cü ildə fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirildi. Cəmiyyətin struktur bölmələri rəhbərlərinin, departament və şöbə rəislərinin, dənizçilərin iştirak etdiyi tədbirdə qazanılan nailiyyətlərdən söz açıldı, mövcud problemlərin həlli yolları müzakirə edildi, qarşıda duran vəzifələr müəyyənləşdirildi.**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev hesabat məruzəsində bildirdi ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə gündən-günə qüdrətlənən ölkəmizdə uğurla həyata keçirilən islahatlar, kerçəkləşdirilən möhtəşəm sosial-iqtisadi layihələr 2014-cü il müstəqil inkişaf tariximizin şanlı səhifələrindən birinə çevirdi. Dövlət başçımızın güclü siyasi iradəsi ilə qarşıya qoyulan bütün strateji inkişaf hədəflərinə bundan sonra da nail olunacağına əminliyini ifadə edən Rauf Vəliyev keçən ilin bütövlükdə Gəmiçilik üçün də əlamətdar olduğunu vurğuladı.

Natiq möhtərəm Prezidentimizin dəniz nəqliyyatı sahəsinə diqqət və qayğısına əməli işlə cavab vermək, etimadını layiqincə doğrultmaq, 22 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə ölkəmizdə mövcud iki nəhəng donanmanın birləşdirilməsi yolu ilə yaradılan “AXDG” QSC-ni müstəqil Azərbaycanın iqtisadi tərəqqisinə sanballı töhfə verə biləcək müasir, çevik şirkətə çevirmək istiqamətində görülən işlərdən danışarkən rəqabətin getdikcə kəskinləşdiyi Xəzərdə Gəmiçiliyimizin öncül mövqeyinin qorunub saxlanılması, etibarlı tərəfdaş imicinin möhkəmləndirilməsi, nəqliyyat donanmamızın dünya sularına çıxışının təmin edilməsi, idarəetmə mexanizminin effektivliyinin artırılması, maliyyə-uçot fəaliyyətinin, təchizat sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, yeni kadr siyasətinin tətbiqi... üçün həyata keçirilən mühüm tədbirlərdən və əldə olunan nəticələrdən ətraflı bəhs etdi.

“Vaxtında hədəflərimizi dəqiq müəyyənləşdirməsəydik, bu gün hər hansı nailiyyətdən danışa bilməzdik”- deyən Cəmiyyətin sədri Donanmaların təzələnməsindən danışarkən keçən il Gəmiçiliyin öz imkanları və dövlətin dəstəyi ilə 1 tanker, 3 təchizat və yedək, 2 quru yük gəmisinin alındığını, Bakı Gəmiqayırma Zavoduna 3 sərnişin gəmisinin tikintisinin sifariş edildiyini diqqətə çatdırdı.

*(Davamı 2-ci səhifədə)*

# 2014-CÜ İLİN NƏTİCƏLƏRİ ÜRƏKAÇANDIR

*(Əvvəli 1-ci səhifədə)*

Yeni alınan və texniki göstəricilərinə görə Xəzərdə analoqu olmayan yedək-təchizat və sərnişin gəmilərindən "Şahdəniz-2", "Şəfəq-Asiman", "Abşeron Faza-1" kimi mühüm layihələrdə istifadə olunacağını, keçən ilin axırlarında "Üzeyir Hacıbəyli" və "Natəvan" quru yük gəmilərinin Qara dənizdə ilk səfərləri ilə isə uzun fasilədən sonra nəqliyyat donanmamızın xarici sulara qayıdışının təmin edildiyini bildirdi.

Rauf Vəliyev "Müslüm Maqomayev" və "Lənkəran" gəmilərinin istismara verilməsi mərasimində möhtərəm Prezidentimiz İlham Əliyevin Gəmiçiliyin ünvanına dediyi xoş sözləri böyük etimad kimi dəyərləndiklərini və bütün qüvvələrini bu etimadı doğrultmağa yönəltdiklərini vurğuladı.

Yığıncaqda bildirildi ki, Gəmiçilik Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində müxtəlif yüklər və sərnişin daşımaqla yanaşı, Xəzərdə həyata keçirilən neft və qaz əməliyyatlarına bütün mühüm dəniz nəqliyyatı xidmətləri göstərir. Donanma




yalnız beynəlxalq tələblərə cavab verəndə gəlir gətirdiyindən, hesabat dövründə gəmi təmiri də daha çox diqqət yetirilən sahələrdən olmuşdur. "Zığ" və "Bibiheybət" zavodlarında həyata keçirilən yenidənqurma işləri, maddi-texniki bazalarının möhkəmləndirilməsi, Nijni Novqorod Gəmi Təmiri - Gəmiqayırma Korporasiyasında inşa edilmiş, yükqaldırma qabiliyyəti 8 min ton olan yeni üzən dokun istifadəyə verilməsi, ehtiyat hissələr probleminin vaxtında həll edilməsi öz bəhrəsini verir.

"AXDG" QSC-nin sədri ölkəmizdə gerçəkləşdirilən nəhəng layihələr, xüsusən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının və Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi ilə əlaqədar yüklərin həcminin də xeyli artacağına və dənizçilərimizin bu imkanlardan məharətlə bəhrələnə biləcəklərinə inamını ifadə etdi.

"Bu il Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin qarşısında duran əsas vəzifələr strateji inkişaf istiqamətlərinin və "Azərbaycan Respublikasında Gəmiçiliyin 2015-2020-ci illərdə inkişafına dair Dövlət Proqramı"nın təsdiqi, Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi, ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq İSO sertifikatlarının alınmasıdır. Tikinti sahəsində də müəyyən işlər görməliyik. ""Zığ" Gəmi Təmiri Zavodunun tikintisini başa çatdırmalıyıq. Donanmanın yenilənməsinə gəlincə isə, Bakı Gəmiqayırma Zavoduna sifariş verilmiş 3 sərnişin gəmisindən ikisinin bu il, birinin isə gələn ilin may ayınadək təhvil alınması və Gəmiçiliyin 2015-2020-ci illərdə inkişafına dair Dövlət Proqramında nəzərdə tutulan gəmilərin tikintisinə başlanması planlaşdırılır"- deyən Rauf Vəliyev daha sonra cari ilin prioritetlərini də müəyyənləşdirdi.

Cəmiyyətin sədri çıxışının sonunda 2015-ci ili Gəmiçiliyin əmək salnaməsinin ən uğurlu səhifələrindən birinə çevirmək, ölkə rəhbərinin dəniz nəqliyyatı işçiləri qarşısında qoyduğu tapşırıqları layiqincə yerinə yetirmək üçün bütün zəruri tədbirlərin bundan sonra da qətiyyətlə davam etdiriləcəyini vurğuladı.

"AXDG" QSC sədrinin birinci müavini Muxtar Axundov, sədrin müavinləri Cəlal Fərəcli və Nəzrəddin Əhmədzadə, Donanmanın təhlükəsiz üzmə departamentinin rəisi Aydın Mahmudov çıxışlarında cavabdeh olduqları sahələrdə qazanılan nailiyyətləri qeyd etməklə yanaşı, diqqəti daha yaxşı işləmək imkanlarının mövcudluğuna yönəltdilər.

Yığıncaqda yükdaşımaların həcminin və səmərəliliyinin artırılması, gəmilərin təmirinin keyfiyyətinin yüksəldilməsi, qənaət rejiminin gücləndirilməsi, şəffaflığın təmin olunması, icra intizamının möhkəmləndirilməsi və sair ilə bağlı tədbirlər müəyyənləşdirildi və cavabdeh şəxslərə konkret tapşırıqlar verildi.

Sonda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dənizçiləri narahat edən məsələlər, onların arzu və təklifləri ilə maraqlandı və suallarını cavablandırdı.

**Rasif TAHİROV**

## İŞ VAXTI REJİMİ PİLLƏLİ ŞƏKİLDƏ TƏŞKİL EDİLƏCƏK

**Nazirlər Kabineti Birinci Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar Bakıda iş vaxtı rejiminin dəyişdirilməsi barədə sərəncam verib.**

Nazirlər Kabinetindən bildirilib ki, 2015-ci ildə Bakı şəhərində I Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar nəqliyyat vasitələrinin maneəsiz və təhlükəsiz hərəkətini təmin etmək, işçi qüvvəsinin və tamaşaçıların ictimai nəqliyyat sisteminin (metro və avtobus) mövcud imkanlarından tam şəkildə istifadə etmələrinə şəriat yaratmaq məqsədilə 2015-ci il mayın 1-dən iyulun 1-dək Bakı şəhərində fəaliyyət göstərən dövlət orqanlarında, dövlət müəssisə və təşkilatlarında çalışan işçilərin (növbəli iş rejimi əsasında və təhsil müəssisələrində işləyənlər istisna olmaqla) əmək funksiyalarını nəzərə almaqla, iş vaxtı rejimi aşağıda göstərildiyi kimi pilləli şəkildə təşkil edilməlidir:

**-işçilərin 25 faizi üçün saat 8:00-dan saat 17:00-dək;**
**-işçilərin 25 faizi üçün saat 8:30-dan saat 17:30-dək;**
**-işçilərin 25 faizi üçün saat 9:00-dan saat 18:00-dək;**
**-işçilərin 25 faizi üçün saat 9:30-dan saat 18:30-dək.**

Bakı şəhərində fəaliyyət göstərən qeyri-dövlət müəssisə və təşkilatlarda çalışan işçilərin isə (növbəli iş vaxtı rejimi əsasında və təhsil müəssisələrində işləyənlər istisna olmaqla) əmək funksiyalarını nəzərə almaqla, iş vaxtı rejiminin göstərildiyi kimi pilləli şəkildə təşkili tövsiyə edilir:

**-işçilərin 50 faizi üçün saat 8:00-dan saat 17:00-dək;**
**-işçilərin 50 faizi üçün saat 8:30-dan saat 17:30-dək.**

Sərəncama əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 oktyabr tarixli 342s nömrəli sərəncamının 2-ci hissəsində "iyunun 10-dan 30-dək" sözləri "mayın 1-dən iyulun 1-dək" sözləri ilə əvəz edilir.

Gənclər və İdman Nazirliyi, Nəqliyyat Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılıb ki, bu sərəncamda nəzərdə tutulmuş tədbirlərlə bağlı əhalinin kütləvi informasiya vasitələri ilə məlumatlandırılmasını təmin etsinlər. Eləcə də, Daxili İşlər Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti Bakı şəhərində avtonəqliyyat vasitələrinin qeyri-qanuni parklanma hallarının aradan qaldırılması üçün 2015-ci il aprelin 1-dən etibarən kütləvi informasiya vasitələri ilə ictimai təbliğat və məlumatlandırma işlərinin aparılmasını təmin etməlidirlər.

## GƏMİLƏRİN KEYFİYYƏTLİ TƏMİRİNƏ ÜSTÜNLÜK VERİLİR

**Aprelin ilk günlərində "Qaradağ" quru yük gəmisi əsaslı təmirdən sonra istismara qaytarılmışdır. Bu, cari ildə "Bibiheybət" Gəmi Təmiri Zavodunda beynəlxalq standartlara uyğun təmir edilən sayca 14-cü gəmimizdir.**




"Qaradağ" teploxodunda böyük həcmdə iş görülmüş, onun hər iki baş mühərriki və müxtəlif mexanizmləri, gəmi sistemləri, elektrik və radionaviqasiya cihazları əsaslı təmir edilmiş, bir çox mexanizm və qurğular xaricdə istehsal olunmuş avadanlıqlarla, o cümlədən köməkçi mühərriklər MAN şirkətinin istehsalı olan dizel-generatorlarla əvəz edilmişdir. 27 yaşlı bu quru yük gəmisinin gövdəsində, yük anbarlarında, ballast bölmələrində və s. yerlərdə korroziyaya uğramış metal təbəqələr dəyişdirilmiş, bu məqsədlə bütövlükdə 85 ton metal işlədilmişdir. Yükün dəniz suyundan və yağıntılardan qorunmasında əsas rol oynayan anbar qapaqları öz mexanizmləri ilə birlikdə tam yararlı vəziyyətə gətirilmişdir. Gövdənin sualtı və suüstü hissələri, yük anbarları, maşın şöbəsi də daxil olmaqla bütün sahələr - ümumilikdə 21545 $m^2$ sahə pasdan təmizlənmiş və rənglənmişdir. Gəminin yaşayış və xidməti otaqları, sanitar-məişət yerləri də əsaslı təmir edilmişdir.

Qeyd etmək lazımdır ki, donanmanın səmərəli fəaliyyətinin əhəmiyyətli dərəcədə gəmilərin istismara yararlığından asılı olduğunu son bir ildə maddi-texniki bazası xeyli möhkəmləndirilən gəmi təmiri müəssisələrimizdə də yaxşı anlayırlar. 2014-cü ildə zavodlarımızda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin 100 gəmisi əsaslı, tərsanə və cari təmirdən çıxmışdır.






Gəmi təmiri emalatxanaları da donanmaların sazlığına layiqli töhfə verirlər. Ötən il neft donanmasının kiçik su tutumlu 21 gəmisi məhz XDND-nin gəmi təmiri emalatxanalarında istismara tam yararlı vəziyyətə gətirilmişdir. Onların 10-u əsaslı, 9-u tərsanə və 2-si cari təmirdən keçmişdir.

Əksər gəmilər nəzərdə tutulan vaxtdan tez istismara qaytarılmışdır. Bütün təmir işləri "Azərbaycanda Rusiyanın Gəmiçilik üzrə Dəniz Registri"nin nəzarəti altında, beynəlxalq standartlara uyğun aparılmışdır.

Gəmi təmirçiləri 2015-ci ildə də yaxşı işləmək ənənəsinə sadiqdirlər. İlin əvvəlindən "Zığ" zavodunda "İslam Kərimov" kran gəmisi, "Prezident Heydər Əliyev", "Dədə Qor-

*(Davamı 4-cü səhifədə)*

# «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC yeni inkişaf mərhələsindədir

## Prezident İlham Əliyev: «Əminəm ki, Xəzər Gəmiçiliyi dünya miqyasında çox gözəl və müasir şirkətə çevriləcəkdir»





**Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin sürətli iqtisadi inkişafı bu gün ölkəmizi dünyanın lider ölkələri səviyyəsinə ucaltmışdır. Məhz yüksək iqtisadi-sosial inkişafın nəticəsi kimi indi Azərbaycanda ən müasir nəqliyyat və sosial infrastrukturlar yaradılmaqdadır. Xüsusən, ixrac potensialı davamlı olaraq artan ölkəmiz üçün yenilənmiş, inkişaf edən və beynəlxalq standartlara cavab verən Xəzər Dəniz Gəmiçiliyinin formalaşması günün ən aktual məsələlərindəndir.**

Dövlət başçımızın iqtisadiyyatda köklü struktur islahatlarının davam etdirilməsi, dəniz gəmiçiliyi sahəsində yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsi məqsədi ilə «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında 22 oktyabr 2013-cü il tarixli 6 nömrəli və «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında 10 yanvar 2014-cü il tarixli 213 nömrəli Sərəncamları ilə respublikada mövcud olan iki böyük donanma - Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmaları birləşdirilərək yenidən təşkil olunmasından ötən qısa müddət ərzində «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyəti yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan gəmiçiliyinin müasir standartlara cavab verməsi üçün həm idarəetmədə, həm daşımada, həm də güclü kadr potensalının formalaşmasında qətiyyətli addımlar atılmışdır. Nəticə isə qürurvericidir. Belə ki, Prezident İlham Əliyevin ötən il dekabrın 18-də «Müslüm Maqomayev» və «Lənkəran» gəmilərinin istismara verilməsi mərasimində iştirakı zamanı «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyəti barədə dediyi xoş sözlər mövcud inkişafın təsdiqidir: «Gəmiçiliyin gözəl gələcəyi var. Aparılan islahatlar, struktur islahatları və Gəmiçiliyin fəaliyyəti ilə bağlı atılan addımlar gözəl nəticələr verir. Daha da böyük nəticələr olacaq. Bu yaxınlarda Gəmiçiliyin fəaliyyəti üçün əlavə maddi dəstək verilmişdir. Əminəm ki, Xəzər Gəmiçiliyi dünya miqyasında çox gözəl və müasir şirkətə çevriləcəkdir».

Təbii ki, Azərbaycanda gəmiçiliyin tarixi qədim olsa da, 2014-cü il dənizçilərin yaddaşında QSC-nin əmək salnaməsinin ilk ili kimi qalacaq. Apardığımız araşdırmalar zamanı məlum oldu ki, fəaliyyətə başladığı ilk günlərdən Gəmiçilikdə bütün səylər qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsinə yönəldilib. Ötən dövrdə yeni kadr siyasətinin tətbiqi,



idarəetmə strukturunun təkmilləşdirilməsi, maliyyə-təsərrüfat fəaliyyətinin optimallaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılması, Xəzər dənizində iqtisadi mövqelərimizin gücləndirilməsi, gəmilərimizin dünya sularına qayıdışının təmin edilməsi və digər istiqamətlərdə görülən işlər öz səmərəli nəticələrini verməkdədir.

Bü gun Xəzər Dəniz Gəmiçiliyinin əsas hədəflərindən biri donanmanın daha müasir gəmilərlə yenilənməsidir. Ötən il Azərbaycan dövlətinin dəstəyi ilə bu sahədə çox əhəmiyyətli addımlar atılıb. Prezidentimiz İlham Əliyevin iştirakı ilə istismara verilən «Müslüm Maqomayev» sürətli sərnişin gəmisinin bu gün Xəzər hövzəsində analoqu yoxdur. Hər biri 3917 at gücündə olan 4 mühərrik bu katamaran tipli gəmiyə saatda 70 kilometrə qədər sürət yığmağa imkan verir. 150 nəfər tutumu olan və ən müasir avadanlıqlarla təchiz olunan gəmi Beynəlxalq Dəniz Təşkilatının sürətli gəmilərin tikintisində tətbiq edilən HSC kodu tələblərinə uyğun olaraq inşa edilib və BP şirkətinin sifarişlərini yerinə yetirəcəkdir.

Yeni alınan və texniki göstəricilərinə görə Xəzərdə birinci olan digər gəmi isə dartma qüvvəsi 207 ton, uzunluğu 74.2, eni 17.20, suya oturumu 7.20 metr olan «Lənkəran» yedək-təchizat gəmisidir. DP2 dinamik dayanıqlıq sistemi ilə təchiz edilmiş, geniş texniki imkanlara malik olan bu gəminin «Şahdəniz-2», «Şəfəq-Asiman», «Abşeron Faza-1» kimi mühüm layihələrdə istifadəsi nəzərdə tutulub.

Böyük Azərbaycan şairi Nəsiminin adını daşıyan gəmi donanmamızın flaqmanı «Prezident Heydər Əliyev» tankeri ilə eyni layihədəndir. 13000 ton yükgötürmə qabiliyyətinə malik «Nəsimi» tankeri əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində (TRASEKA) neft və neft məhsulları daşıyır.

Keçən ilin ən əlamətdar hadisələrindən biri də beş illik fasilədən sonra dənizçilərimiz tərəfindən xarici suların yenidən fəth edilməsidir. Yeni alınan «Üzeyir Hacıbəyli» və «Natəvan» gəmilərinin Qara dənizdə ilk səfərləri ilə nəqliyyat donanmasının xarici sulara qayıdışı təmin olundu. Hazırda hər iki gəmi müstəqil Azərbaycanın üçrəngli bayrağı altında doğma sulardan uzaqlarda quru yüklər daşıyır. Ötən il həmçinin Bakı Gəmiqayırma Zavodunda «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sifariş etdiyi 3 sərnişin gəmisinin tikintisinə start verilib.

Bu bir həqiqətdir ki, donanma zəngin və güclü olanda, beynəlxalq tələblərə cavab verəndə gəlir gətirə bilir. Bu baxımdan gəmi təmiri ən çox diqqət yetirilən sahələrdəndir. 2014-cü ildə QSC-nin «Zığ» və «Bibiheybət» zavodlarında aparılan yenidənqurma işləri, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, ehtiyat hissələr probleminin həlli artıq öz bəhrəsini verməkdədir. Yeni üzən dok da gəmi təmiri imkanlarını xeyli genişləndirib.

Yeri gəlmişkən, Rusiyanın Nijni Novqorod vilayətindəki Qorodets şəhərində yerləşən Gəmi Təmiri-Gəmiqayırma Korporasiyası tərəfindən inşa edilmiş yeni dokun tikintisi də dövlət büdcəsindən maliyyələşdirilib, bu məqsədlə 27,5 milyon dollar vəsait ayrılıb. Dokun 6 blokunun hamısı yedəkdə Volqa çayından və Xəzərdən keçməklə Bakıya gətirildikdən sonra rusiyalı mütəxəssislər tərəfindən «Zığ» Gəmi Təmiri Zavodunun akvatoriyasında yığma-quraşdırma işləri həyata keçirilib. Dokun uzunluğu 158 metr, eni 36,85 metr, bortunun hündürlüyü 13,36 metr, yükqaldırma qabiliyyəti 8 min tondur. Ən əhəmiyyətli xüsusiyyəti hər bir blokunun ayrılıqda öz göyərtəsinə qaldırılaraq təmizlənməsi və təmir edilməsi imkanının olmasıdır.



Ötən il «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC üçün daha bir uğurla yadda qalıb. Belə ki, 2014-cü ildə QSC Böyük Britaniyada müasir mühasibat uçotunun banisi Luka Paçolinin şərəfinə təsis edilmiş «LUÇA» mükafatına layiq görülüb. Bu mükafat Gəmiçiliyə IFRS-in (MHBS) tətbiqini qısa bir zamanda uğurla həyata keçirən şirkət kimi verilib. «LUÇA» mükafatını Gəmiçiliyin maliyyə-uçot sisteminin beynəlxalq standartlarda uyğunlaşdırılması istiqamətində görülən işlərin ilk uğuru da saymaq olar.

Digər mühüm fakt odur ki, «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-in rəhbərliyi üçün insan amili prioritet məsələdir. Məhz bu səbəbdən də QSC-də işçilərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində genişmiqyaslı işlər həyata keçirilib. Ötən il əmək haqları bir neçə dəfə artırılıb və bütün işçilər pulsuz isti yeməklə təmin olunublar. Gəmiçiliyin Xaçmaz rayonunda yerləşən «Dənizçi» istirahət bazasında əsaslı təmir və yenidənqurma işlərindən sonra burada ailə üzvləri ilə dincəlməyə üstünlük verənlərin sayı xeyli artıb.

Təbii ki, hər yeni uğurun təməli ötən aylarda göstərilən işgüzarlıqdan, səmərəli fəaliyyətdən asılıdır. Bu mənada, 2014-cü ildə kollektivin «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-ni rəqabətədavamlı, çevik və müasir şirkətə çevirmək istiqamətində gördüyü işlər, atdığı addımlar nəticəsiz qalmayıb. Yeni ilin ilk aylarından işə böyük əzmkarlıqla başlanılıb və ilin ilk uğurlarının təməli qoyulub.

Dənizçilər çox yaxşı bilirlər ki, dövlətimizin başçısı İlham Əliyev «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin işgüzar kollektivinə daim diqqət və qayğısını əsirgəmədiyi kimi, onların uğurlarına, işgüzarlıqlarına da böyük dəyər verir: "Dövlət şirkətləri arasında Xəzər Gəmiçiliyinin öz yeri, böyük tarixi, ənənələri var. Xəzərdə bizim gəmiçiliyimiz həmişə böyük rola malik olub. Biz də bu gün müasir şirkət yaratmaqla həm iqtisadi potensialımızı möhkəmləndirəcəyik, eyni zamanda, Xəzər Gəmiçiliyi dünya miqyasında müasir, çox səmərəli şəkildə idarə olunan şəffaf şirkət kimi özünü təqdim edəcək.»

Təbii ki, «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin kollektivi möhtərəm prezidentimizin bu inamını gələcək aylarda da doğrultmağa qadirdir. Ona görə ki, işgüzarlıq, vətənə və dövlətə yüksək xidmət amalı ilə fəaliyyət göstərən bu kollektiv üçün uğurlar həmişə əlçatacaq qədər yaxındadır.

**Elçin ZAMAN,**
**«İki sahil»**

# GƏMİLƏRİN KEYFİYYƏTLİ TƏMİRİNƏ ÜSTÜNLÜK VERİLİR

*(Əvvəli 2-ci səhifədə)*

qud" və "Babək" tankerləri, "Bəstəkar Qara Qarayev" teploxodu və "Akademik Zərifə Əliyeva" gəmi-bərəsi… yüksək keyfiyyətlə təmir edilərək istismara verilmişdir.

"Bibiheybət" zavodunun əməkçiləri isə müxtəlif təyinatlı "Barja-701", "Usuxçay", "Samir Quliyev", "Zülfi Hacıyev", "Geofizik", "Qəhrəman Xəlilbəyli" və s. gəmiləri keyfiyyətlə təmir edərək açıq dənizə yola salmışlar.

**Tahir DADAŞOV**





# DƏNİZDƏ BOĞULAN MİQRANTLARIN SAYI ARTIR



AFP/GETTY IMAGES

**"The Guardian" yazır ki, 2015-ci ilin birinci rübündə 500 nəfərə yaxın miqrant Aralıq dənizində batıb ki, bu da 2014-cü ilin eyni dövrü ilə müqayisədə 10 dəfə çoxdur. Cari ildə həmin dənizdə batanların sayı rekord həddə çata bilər. Çünki Aralıq dənizindəki boğulma halları qarşısıalınmaz prosesə çevrilib.**

Aralıq dənizində batanlar, əsasən, Avropaya köçmək və orada sığınacaq tapmaq istəyənlərdir. Qəzet yazır: "Konkret rəqəmlə ifadə edilsə, cari ilin ilk rübündə sığınacaq axtaran 486 nəfər dənizdə boğulub. 2014-cü ilin ilk rübündə isə cəmi 46 nəfərin həmin dənizdə batdığını nəzərə alsaq, boğulanların sayının10 dəfədən də çox artdığını görmək çətin deyil. Bu barədə beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən məlumat verilib."

Daha qəribə budur ki, dənizlə Avropaya köçmək istəyən miqrantların sayının kəskin artmasına baxmayaraq, Avropaya gəlib çata bilən miqrantların sayı əvvəlki kimi qalıb: "Bu ondan xəbər verir ki, Avropa Birliyi oktyabrda oradan çıxarılmış tammiqyaslı İtalyan Xilasetmə Əməliyyatının əvəzlənməsi ilə bağlı qərara gəlib. Həmçinin dəniz üzərindən keçmə cəhdlərinin və dəniz boyu baş verən bədbəxtliklərin cilovlanması qərarı da bu qəbildəndir."

Cari ilin birinci rübündə dənizdə baş verən ölüm hallarının 2014-cü ilin ilk rübündəki ölüm halları ilə müqayisəsi və aralarındakı kəskin fərq deməyə əsas verir ki, 2015-ci ildə boğulma halları ötənilki 3419 nəfərlik ümumi boğulma sayını üstələyə bilər: "Halbuki ötən ildə boğulanların sayı da əvvəlki illərin göstəricilərindən xeyli yüksək idi".



Sayı ildən-ilə artan və Aralıq dənizini keçməyə cəhd edərkən boğulan miqrantlar əsasən Əlcəzair, Misir, Liviya kimi ərəb ölkələrindəndir.

Əlavə edək ki, 2011-ci ildə baş verən "ərəb baharı" nəticəsində miqrantlar Avropa ölkələrinə dəniz yolu ilə axın etməyə başladılar və ildən-ilə bu axınların sayı da çoxaldı. Təbii ki, "ərəb baharı" həmin ölkələrin xalqları üçün tamamilə faciəvi oldu: kütləvi qırğınlar, vətəndaş müharibəsi, infrastrukturun dağılması, xarici dairələrin qurduqları planlar əsasında bu ölkələrin təbii sərvətlərinin, pul, qızıl ehtiyatlarının talanması və sair. Nəticədə viran qalmış ölkələrini tərk etməyə məcbur olan əhalinin bir qisminin nəsibi də dənizdə boğulmaq oldu. Avropa Birliyi isə miqrantların dənizlə hərəkəti üzündən sularda xilasetmə əməliyyatlarını dayandırıb. Əlbəttə, "ərəb baharı" nəticəsində kütləvi sayda müsəlmanların, asiyalıların öz ölkələrində qırılmasına laqeyd yanaşan, bir çox məqamlarda buna rəvac verənlərin indi bu qırğınların dənizdə baş verməsini soyuqqanlıqla izləmələri "anlaşılandır". Həmçinin, bu gün ciddi iqtisadi böhranla üzləşən Avropa ölkələrinin boğulmaqdan qurtulanları və "qoca qitə"yə ayaq basanları normal qarşılaması da mümkün deyil. Həmin yollarla ərəb ölkələrindən Avropaya gələn miqrantların ən pis gündə olan səfillər kimi qitə ölkələrinin küçələrində günlərini saydıqları, diskriminasiyaya məruz qaldıqları, heç bir sığınacaq tapa bilmədiklərindən əksəriyyətinin xəbəri var. Bu, bir daha onu göstərir ki, həmin ərəb ölkələrinin əhalisi 2011-ci ildə aldadılıb xaosa, vətəndaş müharibəsinə, qırğın və talanlara sürükləndikləri kimi, indi nə öz ölkələrində, nə də Avropada özlərinə yer tapa, normal həyat sürə bilmirlər və ölümün ağuşuna buraxılırlar...

**İ. AĞAYEV**

# TƏLƏBƏ ELMİ KONFRANSI KEÇİRİLMİŞDİR



**Azərbaycan Dövlət Dəniz Akademiyasında "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş tədbirlər planı"na uyğun olaraq aprelin 7-8-də "Dəniz nəqliyyatının müasir problemləri" mövzusunda tələbə elmi konfransı keçirilmişdir.**



ADDA-nın rektoru Rasim Bəşirov giriş sözündə konfransın Ulu Öndər Heydər Əliyevin 92-ci ildönümünə həsr olunmasını, bu dahi insanın şəxsiyyətinə böyük hörmət və ehtiramın təzahürü olduğunu vurğulamışdır.

Konfransda həmçinin Azərbaycan Dövlət Dəniz Administrasiyasının rəis müavini Şahlar Məmmədov və ADDA-nın Elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektoru Zahid Şərifov çıxış edərək bu təhsil ocağında hər il keçirilən tələbə konfransının əhəmiyyətini vurğulamışlar.

Konfransda akademiyanın gənc tədqiqatçıları, magistrləri və tələbələri tərəfindən təqdim edilmiş 100-dək məqalə"Gəmiqayırma və gəmi təmiri", "Gəmi sürücülüyünün texniki vasitələri, "Gəmi energetik qurğuları", "Gəmilərin elektrik avadanlıqları və avtomatikası", "Dəqiq elmlər və tətbiqi mexanika, "Su nəqliyyatında daşımalar", "Su nəqliyyatının humanitar və dilçilik məsələləri" bölmələrində dinlənilmiş, ən yaxşı məruzələr I, II, III dərəcəli diplomlarla təltif edilmişdir.

**Tahir DADAŞOV**



Baku 2015
1st EUROPEAN GAMES

## I Avropa Oyunları



# Avropa idmanının nəbzi döyünəcək 16 məkan

***Azərbaycana Avropa Oyunlarına hazırlıq üçün cəmi iki il vaxt verilmişdi. Məlumdur ki, Yay Olimpiya Oyunlarının keçirilməsində artıq böyük təcrübə mövcuddur və Beynəlxalq Olimpiya Komitəsinin təlimatlarında hər bir istiqamət üzrə müəyyən edilmiş metodiki qaydalar var. İlk Avropa Oyunları üçün isə heç bir təlimat və təcrübə yoxdur. Belə olan halda bütün məsuliyyət, təşkilati məsələlərin yoluna qoyulması Azərbaycanın üzərinə düşürdü.***

***Təqdirəlayiq haldır ki, Azərbaycan qarşıya qoyulan məsuliyyətli işin öhdəsindən layiqincə gəlir.***

***Yarışların keçiriləcəyi idman obyektləri ilə tanış olaq.***

### Bakı Olimpiya Stadionu



Burada yüngül atletika yarışları keçiriləcək. Stadion Atletlər Kəndinin (AK) şimalında yerləşir və burada atletika yarışları ilə yanaşı, Avropa Oyunlarının açılış və bağlanış mərasimləri də keçiriləcək. Stadion 68 min tamaşaçı tutumuna malikdir.

### Milli Gimnastika Arenası



Arenada gimnastika (idman gimnastikası, bədii gimnastika, batut üzərində tullanma, akrobatika, aerobika) yarışları keçiriləcək. AK-ın cənubunda yerləşir. Tikintisi 2014-cü ilin fevralında tamamlanıb. 2014-cü ilin aprelində Prezident İlham Əliyevin iştirakı ilə arenanın rəsmi açılışı olub. 6 min 800 nəfərlik kompleks Avropa Oyunları zamanı gimnastika yarışlarına ev sahibliyi edəcək. Oyunlar zamanı arenada 447 idmançının yarışacağı gözlənilir.

### Crystal Hall 1



Burada voleybol yarışları keçiriləcək və 336 idmançı iştirak edəcək. Oyunlar zamanı 6 min tamaşaçı tutumuna malik olacaq.

### Crystal Hall 2

Boks üzrə yarışlar burada keçiriləcək və 300-ə yaxın idmançı iştirak edəcək. Oyunlar zamanı 3 min 400 tamaşaçı tutumuna malik olacaq.

### Crystal Hall 3

Burada karate, taekvondo və qılıncoynatma idman növləri üzrə yarışlar keçiriləcək. Yarış zamanı 2 min tamaşaçı tutumuna malik olacaq.

### Tofiq Bəhramov adına Respublika Stadionu



Oxatma üzrə yarışlara ev sahibliyi edəcək. Yarışlar zamanı tamaşaçı tutumu 3 min nəfər olacaq. Burada keçirilən yarışlarda ümumilikdə 128 idmançı (64 kişi və 64 qadın) mübarizə aparacaq.

### Bakı Su İdmanı Sarayı



Burada su idmanı yarışları keçiriləcək. Azərbaycan üçün simvolik idman arenası olacağı nəzərdə tutulur. Kompleks suya tullanma, üzgüçülük, sinxron üzgüçülük və su polosu üzrə yarışlara ev sahibliyi edəcək. 800-dən çox idmançının yarışacağı gözlənilir. Kompleksdə 6 min tamaşaçı yarışları izləyə biləcək.

### Heydər Əliyev adına İdman-Konsert Kompleksi



Güləş, cüdo və sambo yarışlarına ev sahibliyi edəcək. Tamaşaçı tutumu 7 min 700 nəfər olacaq.

### Voterpol Arenası



Avropa Oyunları Parkının tərkibində təşkil olunan müvəqqəti obyektdir. Yarışlarda 350-dən çox idmançı mübarizə aparacaq və 2 min 400-dən çox tamaşaçı tutumuna malik olacaq.

### Çimərlik Arenası



Çimərlik futbolu və voleybolu üzrə yarışlara ev sahibliyi edəcək. Əsas çimərlik arenası oyunlar zamanı 3 min 900 tamaşaçı tutumuna malik olacaq. Çimərlik voleybolu üçün 128, çimərlik futbolu üçün isə 96 idmançının Bakıya gələcəyi gözlənilir.

### Müvəqqəti Basketbol Arenası

Müvəqqəti olaraq inşa edilmiş basketbol arenasında basketbol 3X3 yarışı keçiriləcək. Bu cazibədar idman növü Avropa Oyunları Parkının tərkibindəki



ümumi ərazidə yerləşən yarış meydançasında keçiriləcək. Kompleks parkın şərq hissəsində yerləşir. Yarışlarda 128 idmançı mübarizə aparacaq. Oyunlar zamanı təqribən 2 min 500 tamaşaçı tutumuna malik olacaq.

### Bakı İdman Sarayı



Badminton, stolüstü tennis yarışları burada təşkil olunacaq. Oyunlar zamanı 1700 tamaşaçı tutumuna malik olacaq.

### "Kür" Olimpiya Mərkəzi (Mingəçevir)



Kanoe sprint yarışlarına ev sahibliyi edəcək. Azərbaycanın kanoe və kayak qayıqlarında avarçəkmə və akademik avarçəkmə komandaları üçün təlim-məşq yeri rolunu oynayan "Kür" İdman və Avarçəkmə Mərkəzi milli olimpiya təlim mərkəzidir. Avarçəkmə yarışlarında ümumilikdə 350 idmançı 15 medal dəsti uğrunda mübarizə aparacaq. Tamaşaçı tutumu yarış günlərində 1300 nəfər olacaq.



### BMX Veloparkı

Velosiped yarışı üçün tikilən müvəqqəti idman qurğularından biridir. Ümumilikdə 48 idmançı 2 qızıl medal uğrunda mübarizə aparacaq. Yarış günlərində veloparkın tamaşaçı tutumu ən çox 1600 nəfər olacaq.

### Dağ Velosipedi Veloparkı



Velosiped yarışları üçün hazırlanmış müvəqqəti yerdir. Azərbaycanda dağ velosipedi yarışlarının keçirilməsi məqsədilə inşa olunmuş ilk veloparkdır. 75-dən çox idmançı 2 qızıl medal uğrunda mübarizə aparacaq. Oyunlar zamanı tamaşaçı tutumu 1670 nəfər olacaq.



### Bakı Atıcılıq Mərkəzi

Atıcılıq üzrə yarışlar burada təşkil olunacaq. Yarışlarda 19 qızıl medal uğrunda 330 idmançı mübarizə aparacaq. Atıcılıq Mərkəzi ən çox 500 tamaşaçı tutumuna malik olacaq.

*Artur BLOX*

# MERFİ QANUNU

### İŞLƏMƏK BACARIĞI VƏ KONTOR MERFOLOGİYASI

***Xardin qanunu.*** Tək əldən səs çıxmaz.

***Xeçtin dördüncü qanunu.*** Eləmək istəmədiyini sonraya saxlamaq üçün indikindən yaxşı vaxt yoxdur.

***Qrossman lemması.*** İstənilən layiqli işi dünən görməyə dəyərdi.

***Merfi qanunu törəməsinə Haqq təklifi.*** Plan nə qədər mürəkkəb və nəhəngdirsə, baş tutmamaq imkanı da bir o qədər böyükdür.

***Dexa aksiomu.*** Adi işi təxirə salır və belə hesab edirlər ki, onu eləmək üçün həmişə vaxt tapılar.

***İstehsalçının dörd prinsipi.***

1. Alətlər dəstində məhz lazım olan qayka açarı və ya burğu çatışmır.
2. Əksər əməliyyatları yerinə yetirmək üçün əl lazımdır.
3. Qalan qaykalar heç vaxt qalan boltlara düşmür.
4. Layihə nə qədər dəqiqliklə tərtib edilibsə və əgər nə isə düz getmirsə, daha çox anlaşılmazlıq ortaya çıxır.

***Reyin dəqiqlik qaydası.*** Mikrometrlə ölç. Təbaşirlə qeyd et. Balta ilə kəs.

***Təmirin birinci qanunu.*** Sınmayan şeyi təmir etmək olmaz.

***Ağıllı təmirin birinci qaydası.*** Heç nə atma.

***Smitin EHM təmiri qanunu.*** Vintaçan üçün deşik həmişə lazım olduğundan yarım millimetr azdır.

***Nəticə.*** Lazımi ölçüdə deşik əlçatmaz yerdə olacaq.

***Yarukun ikinci qanunu.*** Əgər təzə dəzgah ucuzdursa, şirkət köhnənin təmirini təkid edəcək.

Nəticə. Köhnə dəzgahın təmiri ucuz başa gəlsə, şirkət ən köhnə modelin alınmasını israr edəcək.

***Qorun mühəndis layihələşdirmə qanunları.***

1. Layihəçinin əsas vəzifəsi istehsalı çətin və xidmət edilməsi mümkün olmayan şeylər yaratmaqdır.
2. Xidmət müddəti ən qısa sxem komponentinin elementləri daha az əl çatan yerdə olur.
3. İstənilən sxemdə azı bir köhnə, iki aztapılan və üç layihələşdirmə ərəfəsində detal olmalıdır.

***Nəticə.***

1. Mühəndis-quraşdırıcı layihəni mövcud texniki səviyyəyə çatdıracaq.
2. İstismara dair təlimatda bu dəyişiklik xatırlanmayacaq.

***Kontor merfologiyasının altı qanunu.***

1. İşgüzar məktublarda bir səhv belə olmasa da, poçtda nəyi isə qarışdıracaqlar.

***Nəticə.*** Onları oxuyan sahibkar ikinci nüsxədə səhv tapacaq.

2. Gündüz qüsursuz işləyən təşkilat texnikası axşam kontorda şəxsi istifadəniz üçün işə salınanda sıradan çıxacaq.
3. Təmir mexaniki gələndə sınmış maşın əla işləyəcək.
4. Zərfə pis yapışdırdığınız markalar hər hansı yad əşyaya özü yapışacaq.
5. Yerindən izsiz-soraqsız itən əhəmiyyətli kağızlar öz vacib həyatını yaşayır.
6. İşdən axırıncı çıxan və ya ixtisara düşən sonra belə bir adam gələnə qədər bütün günahlar üçün məsuliyyət daşıyır.

***Devri dilemması.***

Əgər eyni vaxtda makinanın iki toxmağını basmısınızsa, onda təsadüfən toxunduğunuz hərf çap olunacaq.

***Seçmə nəzarət nəzəriyyəsi.***

Bütün iş günü məhz bircə dəfə kresloda rahatlandığınız anda sahibkar yoxlamaq məqsədi ilə kontoru gəzəcək.

### ELMİ AXTARIŞLAR APARILMASI BACARIĞI

***Laboratoriyada işləməyin birinci qanunu.*** İsti kolba da eyni ilə soyuq kolba kimi görünür.

***Laborantlar üçün qayda.*** Nə etdiyini bilmirsənsə, onu diqqətlə gör.

***Fineyqlin səkkizinci qaydası.*** Komandada işləmək çox vacibdir. Günahı başqasında görməyə imkan var.

***Fineyqlin dünyagörüşü.*** Həqiqət elmdədir. Faktlara sizi çaşdırmaq imkanı verməyin.

***Müasir elmin qısa təyini.***

1. Yaşıldırsa və tərpənirsə bu, biologiyadır.
2. Pis iy verirsə, kimyadır.
3. İşləmirsə, fizikadır.

**Muenç qanunu.** Yoxlamasız ötüşmək qədər yeniliyin müvəffəqiyyətli tətbiqinə heç nə kömək etmir.

***Meyin stratiqrafiya qanunu.*** Korrelyasiya asılılığının keyfiyyəti nöqtənin sıxlığı ilə tərs mütənasibdir.

***Vesilind eksperimentləşmə qanunu.***

1. Əgər eksperiment çətindirsə, onu bir dəfə keçirin.
2. Tələb olunan düz xətti yalnız iki nöqtə ilə alın.

***Lermanın texnologiya qanunu.*** Kifayət qədər vaxt və pula istənilən problemi həll etmək mümkündür.

***Lerman nəticəsi.*** Müdam ya vaxtınız, ya pulunuz çatmayacaq.

***Roki yeniliyinin tətbiqi haqqında lemma.*** Maliyyə təşkilatları nəticəsi əvvəlcədən məlum olmayan təklifinizdən imtina edəcəklər.

***Baş barmağın ikinci fərziyyəsi.*** Sadə və qəbul edilə biləcək yalan mürəkkəb və anlaşılmaz həqiqətdən yaxşıdır.

***Consonun birinci qanunu.*** Hər hansı tədqiqat sahəsində əməli töhfəsi olan və bu sahədə uzun müddət işləməkdə davam edən alim burada inkişaf üçün daş maneəyə çevrilir.

***Menn qanunu.*** Alim dərc olunası fakt əldə edirsə, bu, onun nəzəriyyəsi üçün əsas elementə çevrilir.

***Nəticə.*** Bu nəzəriyyə öz növbəsində bütün elmi istiqamətlər üçün əsasa çevrilir.

**Dilimizə çevirən: Rasif TAHİROV**

# KARİB DƏNİZİNDƏ 5 TON KOKAİN TUTUBLAR

**Karib hövzəsindəki narkotrafikə qarşı mübarizə (Operation CARIBBE) çərçivəsində keçirilən beynəlxalq əməliyyatlar zamanı Kanada və ABŞ-ın hərbi gəmiləri mart ayında qaçaqmalçılardan 5 tondan çox kokain müsadirə ediblər.**

Bu barədəKanada Müdafiə Nazirliyinin bəyanatında deyilir. TASS xəbər verir ki, əməliyyatlarda Kanada tərəfdən "Whitehorse"patrul gəmisi, Amerika tərəfdən isə "USS Gary"freqatı və sahil mühafizə gəmiləri iştirak edib.

2014-cü ildə Karib dənizi hövzəsində aparılan əməliyyatlarda qaçaqmalçılardan 4 ton kokain və 500 kiloqramdan artıq marixuana müsadirə edilmişdi. Həmin il əməliyyatlara Kanada Hərbi Dəniz Qüvvələrinə məxsus 7 gəmi, həmçinin göyərtə aviasiyası və 4 ədəd CP-140 "Aurora" tipli kəşfiyyat təyyarəsi cəlb olunmuşdu.

Qeyd edək ki, Karib dənizində narkotrafikə qarşı mübarizə çərçivəsində beynəlxalq əməliyyatlar 2006-cı ildən keçirilir. Bu əməliyyatlarda əsasən Kanada, ABŞ, Fransa, Böyük Britaniya, İspaniya və Niderlandın gəmi və təyyarələri iştirak edir.

# 66 GÜN OKEANDA TƏNHA QALAN ADAMI DƏNİZÇİLƏR TƏSADÜFƏN AŞKARLAYIBLAR

**Almaniyaya məxsus konteyner daşıyan "Houston Express" gəmisi nasaz qayıqda 66 gün Atlantik okeanda qalan amerikalını xilas edib.**

Rusiyanın NTV telekanalı xəbər verir ki, 37 yaşlı Luis Cordan yanvarın 29-da öz yaxtası ilə Şimali Karolina sahillərinə balıq ovlamağa gedib. Bir neçə gün keçdikdən sonra geri dönməyən və barəsində heç bir xəbər olmayan Luis itkin düşmüş elan edilib. 66 gündən sonra isə onu təsadüf nəticəsində "Houston Express" gəmisi aşkarlayıb. Yalnız çiyni zədələnən amerikalının səhhətində ciddi problem aşkarlanmayıb. Çordanın dediyinə görə, bu müddətdə çiy balıq yeyərək və yağış suyu içərək sağ qala bilib.

# BATAN "UZAQ ŞƏRQ" BALIQÇI GƏMİSİNDƏ AZƏRBAYCANLILAR DA OLUB

**Oxot dənizində "Uzaq Şərq" gəmisinin batması barədə məlumat aprelin 1-də Moskva vaxtı ilə 23.39-da daxil olub. Maqadan şəhərindən 300 km aralıda batan gəmidən "SOS" siqnalı gəlməyib. Gəminin 132 nəfərdən ibarət heyət üzvündən 78-nin Rusiya, 54-nün isə başqa ölkələrin vətəndaşları olduğu bildirilir. Dənizdən 54 nəfərin cəsədi çıxarılıb, 15 balıqçının taleyi bəlli deyil. Xilas edilən 63 nəfərdən 7-nin vəziyyəti ağırdır. Gəminin heyət üzvləri arasında 7 azərbaycanlı da olub. Onlardan 4 nəfəri xilas edilib.**

Qəzanın baş verdiyi ərazidə 26 gəmi, aviasiya və 1500 nəfər xilasedici işləyib.

"Uzaq Şərq" böyük balıqçı gəmisinin batması ilə bağlı "Təhlükəsizlik qaydalarına əməl etməmə" maddəsi ilə cinayət işi açılıb. Gəminin məxsus olduğu şirkətdə yoxlama aparılır.

# Dənizlərə gözəllik verən gəmilərimiz








*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Конвенция ООН по морскому праву / Dəniz hüququ haqqında BMT Konvensiyası
### UN CONVENTION ON MARINE LAWS

Разработана и принята 30 апреля 1982 г. III Конференцией ООН по морскому праву. Состоит из 17 частей, включающих 320 статей и 9 приложений. Конвенция подтверждает и дополняет ряд положений, закрепленных Женевскими конвенциями по морскому праву. Вместе с тем она включает в себя много новых положений, которые впервые появились в Международном морском праве и существенно развили международно-правовой режим Мирового океана в новых условиях научно-технической революции и перестройки международных отношений. Впервые договорным путем устанавливаются статус международного района морского дна, порядок регулирования деятельности по исследованию и использованию его ресурсов. Конвенция предусмотрела также дополнения и изъятия из исключительной юрисдикции государства флага над своими судами в открытом море. Так, право преследования по «горячим следам» иностранного судна может осуществляться за нарушение законов и правил, совершенное не только в пределах территориального моря, но и в экономической зоне и на континентальном шельфе. Специальная часть Конвенции посвящена защите и сохранению морской среды от всех возможных форм загрязнения, возникающих в результате человеческой деятельности. Конвенция является всеобъемлющим международным договором по морскому праву, исторической вехой в области кодификации и прогрессивного развития Международно-правовых норм, призванных регламентировать режим Мирового океана в современных условиях развития общества.

1982-ci ilin aprel ayının 30-da dəniz hüququ haqqında BMT-nin III Konfransında işlənib hazırlanmış və qəbul edilmişdir. 320 maddəni və 9 əlavəni əhatə edən 17 hissədən ibarətdir. Bu Konvensiya dəniz hüququ üzrə Cenevrə konvensiyaları ilə təsbit olunmuş bir sıra müddəaları təsdiqləyir və tamamlayır. Bununla bərabər, ilk dəfə Beynəlxalq dəniz hüququnda meydana çıxan və yeni elmi-texniki inqilab və beynəlxalq münasibətlərin yenidən qurulması şəraitində Dünya okeanının beynəlxalq-hüquqi rejimini əsaslı şəkildə inkişaf etdirən bir çox yeni müddəaları özündə əks etdirir. İlk dəfə olaraq müqavilə yolu ilə dəniz dibinin beynəlxalq rayon statusu, dəniz dibi ehtiyatlarının tədqiqinə və onlardan istifadəyə dair fəaliyyətin tənzimlənməsi qaydaları müəyyənləşdirilir. Konvensiya habelə açıq dənizdə bayraq dövlətlərinin öz gəmiləri üzərindəki müstəsna yurisdiksiyasına əlavələri və ondan istisnaları nəzərdə tutmuşdur. Məsələn, xarici gəminin «isti izlər»lə təqib edilməsi hüququ qanun və qaydaların yalnız ərazi dənizi hüdudlarında deyil, həm də iqtisadi zonada və kontinental şelfdə pozulmasına görə həyata keçirilə bilər. Konvensiyanın xüsusi hissəsi dəniz mühitinin insan fəaliyyəti nəticəsində yaranan çirklənmənin bütün mümkün formalarından müdafiəsinə və qorunmasına həsr olunmuşdur. Konvensiya dəniz hüququ haqqında əhatəli beynəlxalq müqavilədir, cəmiyyətin müasir inkişafı şəraitində Dünya okeanı rejimini tənzimləyən beynəlxalq-hüquqi normaların məcəlləşdirilməsi və mütərəqqi inkişafı sahəsində tarixi mərhələdir.

### Конвой судов / Gəmilərin konvoyu
### CONVOY OF VESSELS

Временное формирование из торговых судов, судов обеспечения и военных кораблей, создаваемое для безопасной перевозки морем во время войны военной техники, боезапаса и грузов. Конвой судов применяется с древних времен для защиты торгового судоходства от нападения воюющей стороны, а также пиратов и каперов в мирное время. Конвоирование судов во время войны регламентируется, как правило, национальным законодательством. В первую и вторую мировые войны конвоирование судов являлось основным способом защиты торговых судов.

Müharibə vaxtı hərbi texnikanın, döyüş sursatının və yüklərin dənizlə təhlükəsiz daşınması üçün ticarət və təchizat gəmilərindən, hərbi gəmilərdən yaradılan müvəqqəti hərbi hissə. Gəmilərin konvoyu hələ qədim zamanlardan ticarət gəmiçiliyini müharibə aparan tərəfin, habelə sülh şəraitində dəniz quldurlarının və dəniz quldurluğu ilə məşğul olan gəmilərin - kaperlərin hücumlarından müdafiə etmək üçün tətbiq olunur. Müharibə zamanı gəmilərin mühafizə məqsədi ilə müşayiət edilməsi, bir qayda olaraq, milli qanunvericiliklə tənzimlənir. Birinci və ikinci dünya müharibələrində gəmilərin mühafizə məqsədi ilə müşayiəti ticarət gəmilərinin müdafiəsinin əsas üsulu olmuşdur.

### Коносамент / Konosament
### BILL OF LADING

Документ, выдаваемый перевозчиком грузоотправителю в удостоверение факта принятия груза с обязательством доставить его в целостности и сохранности в порт назначения и передать грузополучателю. С юридической стороны коносамент представляет собой: 1) расписку перевозчика в приеме груза указанного рода, в указанном количестве и состоянии; 2) доказательство наличия договора перевозки груза между перевозчиком и грузоотправителем; 3) товарораспорядительный документ, позволяющий его владельцу распоряжаться грузом.

Коносамент может быть составлен:

а) на имя определенного получателя - именной;

б) по приказу отправителя или получателя - ордерный;

в) на предъявителя.

По именному коносаменту груз выдается в порту назначения указанному в нем получателю либо на основании передаточной надписи последнего другому лицу, предъявившему такой коносамент. По ордерному коносаменту груз выдается его отправителю или получателю либо согласно их приказу иным лицам. Передача ордерного коносамента совершается по именной или бланковой (без обозначения лица, в пользу которого она сделана) передаточной надписи. На предъявителя - коносамент с передаточной надписью, сделанной грузоотправителем и/или получателем. Право на получение груза имеет лицо, предъявляющее коносамент.

Коносамент составляется в нескольких экземплярах (оригиналы и копии), о количестве которых делается отметка на каждом из них. Грузоотправитель определяет количество подписанных оригиналов. Обычно подписывается 3 оригинала.

Количество копий коносамента зависит от потребностей сторон. Такими сторонами являются: грузоотправитель, судовладелец, агент в порту погрузки и форвардинг агент, если он действует от имени грузоотправителя. В коносаменте указываются наименование, маркировка, состояние, внешний вид и свойства груза, количество мест и/или вес брутто и/или объем груза. Обычно описание груза в коносаменте дается кратко. Однако бывает, что требуются подробности, например, номер контракта купли-продажи и страхового полиса или др. данные в зависимости от требований банка. Все формы коносаментов имеют на оборотной стороне отпечатанные типографским способом условия перевозки. Если грузоотправитель является также фрахтователем, условия чартера имеют привилегию перед коносаментом. Поэтому важно, чтобы условия чартера на перевозку не расходились с условиями коносамента.

Yükü tam və salamat təyinat limanına çatdırmaq və yükalana təhvil vermək öhdəliyini üzərinə götürməklə, yükün qəbul olunması faktını təsdiqləmək üçün daşıyıcının yükgöndərənə verdiyi sənəd. Konosament hüquqi baxımdan aşağıdakıları ifadə edir: 1) qeyd edilən növdə, miqdarda və vəziyyətdə yükün qəbul olunmasına görə daşıyıcının verdiyi qəbzi; 2) daşıyıcı ilə yükgöndərən arasında yükün daşınması barədə müqavilənin mövcudluğunun sübutunu; 3) mal üzərində sərəncamverici sənədi, bu sənəd onun sahibinə yüklə bağlı sərəncam verməyə imkan yaradır.

Tərtib olunmasından asılı olaraq konosamentlər fərqlənir:

a) müəyyən bir yükalanın adına - adlı konosament;

b) yükgöndərənin və ya yükalanın əmri ilə - orderli konosament;

c) təqdim edənə.

Adlı konosament üzrə yük təyinat limanında konosamentdə adı qeyd edilmiş yükalana, yaxud sonuncunun verilmə qeydinə əsasən, belə konosamenti təqdim edən digər şəxsə verilir. Orderli konosament üzrə yük onu göndərənə və ya alana, yaxud onların əmrinə əsasən digər şəxslərə verilir. Orderli konosament adlı, yaxud blank verilmə qeydi ilə (xeyirinə həmin qeydin edildiyi şəxsin adı göstərilməməklə) verilir. Təqdim edənə - konosament yükgöndərən və ya yükalan tərəfindən verilmə qeydi ilə tərtib olunur. Konosamenti təqdim edən yükü almaq hüququna malikdir.

Konosament bir neçə nüsxədə (əsl nüsxələr və surətləri) tərtib olunur və hər birinin üstündə onların sayı göstərilir. Konosamentin imzalanmış əsl nüsxələrinin sayını yükgöndərən müəyyənləşdirir. Adətən 3 əsl nüsxə imzalanır.

Konosamentin surətlərinin sayı tərəflərin tələbatından asılıdır. Yükgöndərən, gəmi sahibi, yükləmə limanındakı agent və forvardinq agent, əgər yükgöndərənin adından fəaliyyət göstərirsə, belə tərəflərdən sayılırlar. Konosamentdə yükün adı, markalanması, vəziyyəti, zahiri görünüşü və xassələri, yerlərin sayı, brutto çəkisi ya həcmi göstərilir. Adətən, konosamentdə yük barədə məlumatlar qısaca qeyd edilir. Lakin elə olur ki, başqa təfərrüatlar, məsələn, alqı-satqı müqaviləsinin və sığorta şəhadətnaməsinin nömrəsi, habelə bankın tələblərindən asılı olaraq digər məlumatlar da tələb edilir. Konosamentlərin bütün formalarının arxa tərəfində mətbəə üsulu ilə çap olunmuş şəkildə daşıma şərtləri verilir. Əgər yükgöndərən eyni zamanda fraxtedən olarsa, çarterin şərtləri konosament qarşısında üstünlüyə malik olur. Odur ki, daşımalar üçün carter şərtlərinin konosament şərtlərindən fərqlənməməsi vacibdir.

### Коносамент застрахованный / Sığortalı konosament
### INSURED BILL OF LADING

Коносамент, применяемый при перевозке грузов в контейнерах. Коносамент застрахованный представляет собой сочетание транспортного документа со страховым полисом и служит доказательством приема груза к перевозке, одновременно удостоверяя его страхование.

Yüklərin konteynerlərə daşınması zamanı tətbiq edilən konosament. Sığortalı konosament sığorta şəhadətnaməsi ilə nəqliyyat sənədinin birləşməsi olub, yükün daşınmağa qəbul edilməsi ilə bərabər, onun sığortalandığını da təsdiqləyir.

*(Davamı var)*

---

## “KOSTA KONCORDİYA”NIN GÖYƏRTƏSİNƏ NARKOTİK YÜKÜNÜ YERLƏŞDİRMƏKDƏ LAYNERİN HEYƏTİ KÖMƏK EDİB

**2012-ci ildə İtaliya sahillərində qəzaya uğrayan “Kosta Koncordiya” səyahət gəmisində külli miqdarda kokain olub. Bu iddia ilə mafiyanın danışıqlarının yazısını əldə etmiş “La Repubblica” qəzeti çıxış edib.**

Danışıqlar İtaliyanın maliyyə polisi tərəfindən yazılıb. İstintaq hesab edir ki, Latın Amerikasından gələn narkotik partiyaları səyahət gəmilərinə Dominikan, Peru, Panama və Florida limanlarında ərzaq adı ilə yüklənib. “Kosta Koncordiya”nın göyərtəsinə narkotik yükünü yerləşdirməkdə laynerin heyəti kömək edib.

Xatırladaq ki, “Costa Cruises” şirkətinə məxsus “KostaKoncordiya” gəmisi 2012-ci ilin yanvarın 14-nə keçən gecə İtaliyanın Toskana vilayəti yaxınlığındakı Cilyo adası ətrafında qəzaya uğrayıb. Hadisə baş verən anda gəminin göyərtəsində 4200 sərnişin olub. Qəza nəticəsində 32 nəfər həlak olub.



## *İLK SEYSMİK KƏŞFİYYAT GƏMİSİNİ İSTİFADƏYƏ VERİB*

**Türkiyə öz istehsalı olan neft və qaz axtarışı üçün nəzərdə tutulmuş ilk “TURKUAZ” gəmisini suya buraxıb. Uzunluğu 86 metr, eni 23 metr olan və dörd ilə inşa olunan gəmi115 milyon dollara başa gəlib.**

Gəmi müasir seysmik kəşfiyyat avadanlıqları, laboratoriya və helikopter meydançası ilə təchiz olunub. İstismar müddəti 30 il olan gəmidən neft və qaz yataqlarının kəşfiyyatı ilə yanaşı, həmçinin iqlim dəyişikliyi sahəsində araşdırmalarda da istifadə oluncaq.

Qeyd edək ki, Türkiyə Qara dənizin qərb sahillərində geoloji-kəşfiyyat işlərinə başlamaq niyyətindədir. Bu məqsədlə 1 milyard dəyərində neft platforması tikməyi də planlaşdırır.

# Elan






**01.04.2015-ci il tarixindən Bakı-Aktau-Bakı xəttində avtonəqliyyat vasitələrinin daşınması üçün Ro-Ro gəmisi həftədə bir dəfə səfər edir.**

**Avtonəqliyyat vasitələrinin sayı artdıqca səfərlərin də sayı müvafiq olaraq artırılacaqdır.**

**Bakı-Aktau-Bakı və Bakı-Türkmənbaşı-Bakı istiqamətlərində bərələr hər gün səfər edirlər.**

***Əlaqə telefonları: (+99412) 498 02 44; 404 38 59 (+99450) 317 84 44***

***E-mail: chartering@acsc.az; ruslan.gurbanov@acsc.az***

## YARIZARAFAT, YARIGERÇƏK

- Qan tökülən bütün ölkələrdə lap çeçələ də olsa, mütləq qan hərislərinin barmağı olur.
- Əmanət banklarının etibarını görəndən sonra pulumun yoxluğuna ancaq sevinmək qalır.
- Ermənilər ot yemirlərsə, bizə münasibətdə niyə bu qədər uzunqulaqlıq edirlər?
- Kişiyə hər şeydən əvvəl kişi əməllər yaraşır.
- Günahsız adamın qəlbini qıran daha heç bir günah etməsə də cəhənnəmlikdir.
- Pisliyi bağışlayana həmişə pislik edirlər. Pisliyi müəyyən həddə qədər bağışlayana müəyyən həddə qədər pislik edirlər. Pisliyi bağışlamayana ya pislik etmirlər, ya da nadir hallarda pislik edirlər.
- Pul nə qədər çox olsa, yenə nəyəsə çatmayacaq. Ona görə qədərində daha gözəldir.
- Səbrim qurtarandan sonra görəsən daha nəyi xərcləyə bilərəm?
- Adam var hətta ideal yalan da danışa bilər.
- Adım Sərvər olsaydı, dörd yarı idi. Niyə yerindən duran bütün günahlarını mənim boynuma tökmək istəyir?
- Kişilərin pıçhapıçından pis heç nə yoxdur.
- Axırda lap neft versə də, kiməsə quyu qazmaq kişilikdən deyil.
- Niyə bəzilərinə elə gəlir ki, "Heç həyanın yeridir?"
- Vəzifəyə görə çox şeydən keçənlər sonda hər şeydən keçməli olurlar.
- Adətən deyirlər ki, "Axtaran tapar". Heç vaxt pis adam axtarmadım. Hər addımda qabağıma niyə çıxsınlar?
- SSRİ-nin vaxtında qırmızılar at oynadırdı. Ondan qabaq ağlar. İndi də "mavilər" hər yeri basıb.
- Abır-həya qonaqlıq deyil ki, bir gün sizdə, bir gün bizdə olsun.
- Ağlamayana ən azı ağlamadığı üçün çörək verməyə dəyər.
- Danışmayan hardan bilsin ki, həqiqət yaxşı şeydir?
- Toxluq yaxşı şeydir. Amma gözün toxluğu.
- Vaxt getsə də, vaxtdan heç nə getmir.
- Hətta keçən vaxtı geri qaytarmağın mümkün olmadığını bilə-bilə də vaxtın qədrini bilmirik.
- Təkrar biliyin anası olsa da, onun-bunun sözünü ordaburda təkrarlamaq yaxşı deyil.
- Ağlını qudurğanlıqdan itirməyənlərə həmişə yazığım gəlib.
- İnflyasiyadan sonra mənə qazılan quyuların da xərci artıb?
- Ən qısa yol cəhənnəmə gedən yoldur.
- Nə qədər ki, qarın qardaşdan irəlidir, hər ailədə söz-söhbət olacaq.
- Xasiyyəti gözəl olmayanın gözəlliyindən nə fayda?
- Məni hara desən ac aparıbgətirmək olar, amma susuz mümkün deyil. Ona görə yox ki, çox bilirəm, sadəcə, suzuz dayana bilmirəm.
- Əliniz işləsə, hər şey əlinizin altında olar.
- Bəzi şeyləri onda bilirik ki, onda bilməsək də olar.
- Mənə ilanı yuvadan çıxaran yox, yuvaya salan dil lazımdır.
- Alçaq dağların sayı alçaq dağları yaradan kimi gəzənlərin sayından niyə qat-qat çoxdur.
- Lap ola bilsin arabir düz də danışır, mənə lazım deyil.
- Vaxtında məqsədimiz kommunizm qurmaq olmasaydı, indi bəlkə Çindən qüdrətli ölkədə yaşayırdıq.

***Rasif TAHİROV***

## İZAHLI LÜĞƏT

Yenidənqurma - hipnoz.
Yol polisi - yolkəsən.
Yuxu - gecə quşu.
Kasıb - hədəf.
Katalizator - pul-şey uduşu lotereyası.
Katibə - arakəsmə.
Kürəkən - qabırğa.
Köməkçi - baş ağrısı.
Lift - qan təzyiqi.
Maaş - qonşu payı.
Maddi yardım üçün ərizə - ah-nalə.
MDB (Müstəqil Dövlətlər Birliyi) - üzrü günahından betər
Müqavilə - müştərək yalan.
Müdrik - binokl.
Mükafat - qara çeşmək altından Əliyə də, Vəliyə də bir gözlə baxmaq.
Mükafat - minnətli pay.
Müfəttiş - sağıcı.
Müfəttiş - əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş.
Mərkəzdənqaçan - kəndli.
Mərkəzəqaçan - şəhərli.
Məhkəmə - "Görüş yerini dəyişmək olmaz".
Nadan - gecyetişən.
Nağıl - keçmiş SSRİ-də "Uçot-86", "Mənzil-2000" proqramı.
Nikah - axırıncı aşırım.
Nikah kağızı - iki nəfərə ömürlərinin axırınadək mübahisəyə icazə verən sənəd.
Növbə - sabaha inam.
Nəsihət - qulaqardına vurulan tənqid.
Pasport - şəxsiyyətsizin də "şəxsiyyətini" təsdiq edən sənəd.
Pensiya - gələcək gün.
Piyada - yolölçən.
Pis arvad - nikotin.
Radio - dəngəsər.
Ressenziya - ütü.
Rəqqas - dəymədüşər.
Rəndə - vəkil.
Saat - avara.
Savadsız - ayaqyalın.
Satıcı - ötürücü naqil.
Saf-çürük - işə qəbul.
Sevmək və evlənmək - cinayət və cəza.
Seçici - mal alan.
Ssuda - minnətli borc.
Sözdüzəldən - dilçi.
Sözdəyişdirici - yalançı.
Söhbət - dedi-qodu.
Səbr - kasıbın varı.
Sərgərdan - turist.
Səsvermə - xorla oxumaq.
Tamah - caynaq.
Trayektoriya - vəzifəyə aparan yol.
Töhmət - gözağartması.
Tənqid - sığallı tərif.
Tərif - məlhəm.
Fərsiz övlad - aspirin.
Xadimə - filtr.
Xidmət maşını - göz dağı.
Xidmət maşınının sürücüsü - dəllal.
Xəbərdarlıq - hədə-qorxu.
Xəstə - əyilməz.
Üzüqara - qırçı.
Çayçı - yanğınsöndürən.
Çarpaz xətlər - gəlin və qayınana.
Çiy ət - Brejnevin ərzaq proqramı.
Şayiə - qırxayaq.
Şahid - ağzıyırtıq.
Şagird - şitil.
Şirin vəd - ovsun.
Şitil - təzə işçi.
Hakim - masabəyi.
Heykəltaraş - daşyonan.
Hörmət - interval.
Həqiqət - istiot.
Calaq - kürəkən.
Cəfəngiyyat -üzdəniraq alimin dissertasiyası.
Gəlin - lotereya bileti.
Öyüd-nəsihət - başağrı.
Ömür - möhlət.
Əlaqələndirici - dəllal.
Əliəyri - şikəst.
Əmanət kitabçası - sandıq.
Əmanətçi - tədarükçü.
Ərlə arvadın savaşı - qısametrajlı film.
Ərzaq proqramı - "1001 gecə nağılı."

***Rasif TAHIROV***




***BAŞ REDAKTOR***
**Rasif İman oğlu TAHİROV**

**ÜNVANIMIZ:**
**AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 22**
**TELEFONLARIMIZ**
**Baş redaktor (050) 670-33-76,**
**Redaktor (070) 252-39-02**

***Qəzetin təsisçisi***
**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir**

**Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur**

**Şəhadətnamə 271**
**Sayı 2000**
**Sifariş 38**